# AZƏRBAYCAN MİLLİ KİTABXANAŞÜNASLIQ ELMİNİN YARADICISI

**Xuraman Ağayeva**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*

Azərbaycan milli mədəniyyəti tarixində öz dəyərli əsərləri ilə irs qoymuş Əməkdar elm xadimi, professor Abuzər Xələfovu yetirmələri həmişə hörmətlə anırlar. Taleyini gənc yaşlarından BDU ilə bağlayan alim ömrünün 60 ildən artıq bir dövrünü kitabxanaçılıq və informasiya ixtisası üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına, kitabxanaların inkişafına sərf etmişdir.

Professor Abuzər Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi, kitabxanaşünaslığın tarixini, nəzəriyyəsini, təşkilini, təcrübəsini yaradan, geniş yaradıcılıq imkanlarına malik, elmi-pedaqoji və ictimai fəaliyyəti ilə Azərbaycan kitabxanaşünaslığını dünyada tanıdan alimdir. Alim ən qədim dövrdən bu günə qədər Azərbaycanda kitabxana işinin tarixini, inkişaf istiqamətlərini dərindən araşdırmış, tədqiq etmiş, tarixi təcrübəni nəzəriyyə ilə zənginləşdirmiş, sanballı monoqrafiyalarla, dərslik və dərs vəsaitləri ilə bu sahənin bünövrəsini qoymuşdur.

İntellektual səviyyəsi, elmi potensialı ilə fərqlənən professor A.Xələfov 350-dən çox elmi-nəzəri və tədris-metodiki əsərin, 35-dən çox monoqrafiya, dəslik və dərs vəsaitinin müəllifidir. Respublikamızda kitabxana işinin və kitabxanaşünaslığın nəzəri və tarixi, fəlsəfi problemləri, ali kitabxanaçılıq-informasiya təhsili məsələləri, onun gələcək inkişaf pespektivləri və digər aktual elmi-nəzəri problemlər professor A.Xələfovun elmi yaradıcılığının əsasını təşkil edir. Alimin təkcə müstəqillik illərində yazmış olduğu milli kitabxanaşünaslıq fikrini zənginləşdirən fundamental əsərləri – "Kitabxanaşünaslığa giriş" (2001, 2003), "Azərbaycanda kitabxana işinin tarixi" (2004) dərslikləri, həmçinin "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"(2003), "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" (2006), "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər, proqnoz-

lar)" (2006), "Kitabxana işinin kompüterləşməsinin əsasları" (2006), "Azərbaycanda kitabxana işinin tarixi. III h." (2010), "Kitabxanaşünaslığın tarixi və metodologiyası" (2015) və s. elmi-tədqiqat əsərləri alimin kitabxanaşünaslıq elminə vermiş olduğu dəyərli töhfələrdir.

Təhsilin gözəl bilicisi olan professor A.Xələfov BDU-da və ümumiyyətlə respublikamızda təhsilin yenidən qurulmasına dəyərli məsləhətlərini vermiş, alimin elmi rəhbərliyi ilə respublikamızda onlarla elmlər və fəlsəfə doktoru proqramı üzrə dissertasiyalar müdafiə edilmişdir. Eyni zamanda xarici ölkələrdə xeyli sayda fəlsəfə doktorları və elmlər doktorlarının hazırlanmasında elmi məsləhətçi və ya opponent kimi fəaliyyət göstərmişdir. Respublikamızda fəaliyyət göstərən kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq istiqaməti üzrə elmi dərəcə almış alimlər Abuzər Xələfov elmi məktəbinin yetirmələridirlər. Onun yetişdirdiyi alimlər ordusu Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq istiqamətində mühüm işlər görürlər, professor Abuzər Xələfov ənənələrini ləyaqətlə davam etdirirlər.